# Unudulmaz şəxsiyyət, pedaqoq-alim, böyük ədib



Bir İNSAN düşünün - qəriblik, həsrət, nisgil, ayrılıq yaşayıb, bütün bunlardan sonra bu qədər xeyirxah və mərhəmətli olsun.

Bir İNSAN düşünün - üzündən, baxışlarından, davranışlarından, söz-söhbətindən sadəlik yağsın...

Bir İNSAN düşünün - bir cümləsi belə onu görənlərin, tanıyanların, onunla ünsiyyətdə olan dostlarının, tələbələrinin yaddaşından silinməsin.

Bir İNSAN düşünün - qapısı hamıya ümid ocağı, süfrəsi ürəyi kimi geniş, hər kəsə açıq, evi bir ömür qonaqlı-qaralı olsun.

Bu İNSAN Azərbaycan xalqının unudulmaz şəxsiyyəti, pedaqoq-alim, böyük ədib Mir Cəlal Paşayevdir. Bənzəri olmayan bu böyük İNSAN deyərdi: "Əsərin məzmunu deyil, yazıçının mövzuseçmə qabiliyyəti, onu işləmə üsulu, qələmə alma bacarığı və ürəkdən ümumiləşdirmə məharəti yoxdursa, demək, o əsərdən danışmağa dəyməz".

Görkəmli Azərbaycan yazıçısı, ədəbiyyatşünas Mir Cəlal Paşayevin anadan olmasından 117 il keçir. Gəncliyindən qələmə sarılan Mir Cəlal Paşayev ömrünün sonuna qədər yazdı-yaratdı, oxutdurdu, öyrətdi. Zaman keçdikcə oxucular onun hekayələrinə məftun oldu, sevdi. Sonralar bu böyük qələm sahibini mətbuatda dərc olunan ədəbi-tənqidi, elmi-nəzəri məqalələri ilə gözəl əbəbiyyatşünas kimi tanıdılar. O, "Füzulinin poetik xüsusiyyətləri" (1940), "Azərbaycanda ədəbi məktəblər" (1947) əsərləri ilə Azərbaycan ədəbiyyatşünaslığının xəzinəsinə lazımlı-gərəkli töhfələr verdi. "Dirilən adam", "Bir gəncin manifesti", "Yolumuz hayanadır?", "Təzə şəhər", "Yaşıdlarım"da həyatın əsl üzünü göstərib, solmayan lövhələr yaratdı. Bu lövhələrdə ədəb-ərkan, vətənə bağlılıq, əsl insanlığın salnaməsi olan obrazları ilə həyatı öyrətdi və təbliğ etdi.







Böyük İNSAN - Mir Cəlal Paşayev sadəliyin və təvazökarlığın rəngini fikir və düşüncələrinə diktə edib oxucusuna çatdırdı. Ədibin əsərlərində köhnə həyat tərzinin məhv edildiyini, əvəzinə yeniliyin qələbə çaldığını, insanın düşüncələrinə aydınlıq gətirdiyini oxucu asanlıqla əxz edə bilir.

Bu əsərlərin əsas mövzusu yeni meyillərin, baxışların təsirindən dəyişən xalq hərəkatı, yüksək meyarlarla zənginləşən, ucalan, möhkəmlənən insanların mübarizliyidir. Bütün bunlarla bərabər, böyük ədibin əsərlərində lirika ilə qoşa nəzərəçarpan yumor da çox önəmli yer alır. Bu dahi İNSAN gülür və oxucusunu güldürür. O, elə adamlara gülür ki, yeniliyə can atsalar da, köhnəlikdən tamam yaxa qurtara bilmirlər. Dahi yazıçı beləlvalərini qılınclamır, onlara nifrət etmir, əksinə, köhnəlikdən uzaqlaşıb, yeniliyə yönəlmələrinə yol göstərir.

Mir Cəlal Paşayev mahir və bənzərsiz hekayələr ustasıdır, qələminin dəyərli məhsulu olan çox mənalı hekayələrində ibrət dərsi verməyə çalışır və buna nail olur. Yazıçının böyük roman və povestləri də xalqımızın həyatından alınan, ondan bəhrələnib qidalanan hadisələrə həsr olunub, oradan da oxuculara üz tutaraq onların öhdəsinə verilib.

Böyük yazıçı qələmə vurğunluğu ilə bərabər, həm də MÜƏLLİM və ALİM kimi ürəklərdə yaşayır. O, xalqının görkəmli ədəbiyyatşünası kimi ədəbiyyat tariximizin inkişafına, öyrənilməsinə təkan verən əvəzolunmaz nəzəriyyəçilərin ən öndə gedənlərindən olub.

Onu da mütləq qeyd etməliyəm ki, taleyinə Mir Cəlal Paşayevin tələbəsi olmaq, onun səsini duymaq, mühazirələrini dinləmək payı düşən insanların yaddaşında əsl müəllim obrazı var və unudulması mümkün deyil. Əminliklə deyə bilərəm ki, o anlar bu dahi insanın tələbəsi, aspirantı, dissertantı, iş yoldaşı - həmkarı olmaq, ən azı bir neçə dəfə, elə mənim özüm kimi, bu sadəlik və bütövlük simvolunun yanında dayanıb sözünü-söhbətini dinləmək, onu yaxından görmək səadəti qismətinə düşənlərin əbədi yaddaşına həkk olub.

Tam səmimiyyətimlə deyirəm ki, artıq bu yaşda belə o anları dəfələrlə gözlərim önünə gətirib görkəmli yazıçı, alim, ata, baba sözlərinin o böyük İNSANA nə qədər yaraşdığını fikrimdə canlandıraraq düşünürəm ki, uca Tanrı öz sevdiyi bəndəsini ancaq bu qədər mükafatlandırıb, hərtərəfli yaradırmış... Hər dəfə Mir Cəlal müəllimi xatırlayarkən düşünmüşəm ki, öz seçilən bəndəsini sevən Yaradan ancaq bu qədər bir insana yüksək mənəviyyat, ləyaqət, etibar, sədaqət - ailə səadəti, bir-birindən gözəl xaraktere malik zirvədə dayanmağa layiq övladlar, nəvələr bəxş edər və bu qədər də ətrafına, xalqına sevdirər. O sevgini qədirbilən xalqımız nəsillərdən-nəsillərə ötürür. Elə bu səbəbdən dahi Mir Cəlal Paşayevi əsl xəlqi sənətkar, ustad, mahir pedaqoq adlandırırlar.

Deyirlər, insan üçün iki formada bu dünyadan getmək var. Biri cismani ölüm, biri də unudulmaqdır. Unudulmayan böyük ədibimiz Mir Cəlal Paşayev xalqın ürəyində yaşayır.

**Sona ÇƏRKƏZ,**
**Azərbaycan Yazıçılar Birliyinin üzvü,**
**"Qızıl qələm" media mükafatçısı.**